

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 204 (21.356)

*20 oktyabr 2015-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Gürcüstanın Baş nazirinin müavini, xarici işlər naziri Giorgi Kvirikaşvilini qəbul edib.

Gürcüstanın Baş nazirinin müavini, xarici işlər naziri Giorgi Kvirikaşvili ilk rəsmi səfərini məhz Azərbaycana etməsindən məmnunluğunu bildirib. İkitərəfli münasibətlərimizin yüksək səviyyədə olduğunu deyən Giorgi Kvirikaşvili əməkdaşlığımızın müxtəlif sahələrdə inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Azərbaycan-Gürcüstan əməkdaşlığının siyasi, iqtisadi, humanitar və digər istiqamətlərdə fəal şəkildə davam etdirilməsinin zəruriliyini vurğulayan Prezident İlham Əliyev bu əməkdaşlığın bizi birləşdirən irimiqyaslı nəqliyyat, energetika və iqtisadi layihələrin həyata keçirilməsi baxımından əhəmiyyətini qeyd edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 19 oktyabr tarixli Sərəncamı ilə Azərbaycanda energetika sahəsində səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs təltif edilmişdir.

Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin işçiləri də vardır.

**"Tərəqqi" medalı ilə**

Ağayev Məmmədhəsən Allahverdi oğlu

Hüseynov Etibar Şamil oğlu

Qafarov Rəhim Abbas oğlu

## İ.C.Qəriblinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İsmayıl Cavanşir oğlu Qəribli Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 19 oktyabr 2015-ci il*

## E.C.Musayevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Etibar Cəmil oğlu Musayev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 19 oktyabr 2015-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Oktyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətinin ostandarı İsmayıl Cabbarzadə ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonağı salamlamış, onu muxtar respublikada görməkdən məmnunluğunu bildirmişdir.

Şərqi Azərbaycan Vilayətinin ostandarı İsmayıl Cabbarzadə göstərilən səmimi münasibətə görə minnətdarlıq etmişdir. Naxçıvanın inkişaf etdiyini və müasirləşdiyini bildirən ostandar İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətinin Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına xüsusi önəm verdiyini diqqətə çatdırmış, əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətini vurğulamışdır.

Ali Məclisin Sədri İranın Şərqi Azərbaycan Vilayətinə səfərini xatırlatmış, ötən dövrdə əlaqələrin müxtəlif sahələrdə inkişaf etdiyini bildirmişdir. Əlaqələrin inkişafında qarşılıqlı səfərlərin və birgə səylərin vacibliyini vurğulayan Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın Şərqi Azərbaycan Vilayəti arasında əlaqələrin bundan sonra da davam etdiriləcəyinə inamını ifadə etmişdir.

Söhbət zamanı gələcək əməkdaşlıq imkanları müzakirə olunmuşdur.

Azərbaycan Respublikasının Təbrizdəki Baş konsulu Əli Əlizadə və İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom görüşdə iştirak etmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Seçkilərin şəffaf və demokratik şəkildə keçirilməsi üçün hərtərəfli şərait yaradılıb

***Seçki hər bir xalqın həyatında ictimai-siyasi hadisə olmaqla yanaşı, həm də vətəndaşların azad seçim imkanlarını təmin edən hüquqi prosesdir. Noyabrın 1-də bu proses vasitəsilə xalqımız növbəti beş ildə görmək istədiyi deputatlarını seçəcək.***

Ölkəmizin ictimai-siyasi həyatında mühüm əhəmiyyət kəsb edəcək növbəti parlament seçkilərinə 2 həftədən az bir vaxt qalır. Seçkilərin yüksək səviyyədə təşkili üçün muxtar respublikamızda artıq zəngin təcrübə qazanılıb. Son illərdə keçirilən prezident, parlament və bələdiyyə seçkiləri də bir daha göstərib ki, ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda vətəndaşların öz seçki hüquqlarından istifadəsi diqqət mərkəzində saxlanılıb. Bu, seçkilərdə iştirak edən xarici müşahidəçilər tərəfindən də təsdiq edilib. Ölkəmiz daha bir seçki ərəfəsindədir. Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə noyabr ayının 1-də keçiriləcək seçkilərə hazırlıqla bağlı görüləcək işlərlə tanış olmaq üçün Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasına müraciət etdik. Öyrəndik ki, seçki prosesinə start veriləndən bu günədək Azərbaycan Respublikasının Seçki Məcəlləsinə və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununa əsasən, nəzərdə tutulan tədbirlər ardıcıllıqla həyata keçirilib.




Azərbaycan Respublikası Milli Məclisinə seçkilər üçün 7 seçki dairəsi üzrə 316, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər üçün 45 seçki dairəsi üzrə də 316 məntəqə yaradılıb. Ümumilikdə, seçkilərdə 268 min 463 seçici iştirak edəcək. Onların 4 min 799 nəfəri ilk dəfə səs verənlərdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 135 nəfərin namizədliyi qeydə alınıb.

Azərbaycan Respublikası Milli Məclisinə seçkilər üzrə 4 saylı Naxçıvan Şəhər Dairə Seçki Komissiyasının tərkibində 37 məntəqə yaradılıb. Bu məntəqələrdə 43 min 955 seçici öz namizədinə səs verəcək. Onlardan ən yaşlısı 103 yaşlı Səriyyə Sadiqovadır. 674 nəfər isə ilk dəfə olaraq seçici hüququndan istifadə edəcək. Dairə Seçki Komissiyasının sədri Cahangir Seyidovun sözlərinə görə, deputatlığa namizədlərin təşviqatı üçün açıq və qapalı yerlər ayrılıb, müəyyən olunmuş yerlərdə təşviqat lövhələri quraşdırılıb. Dairə üzrə 120 müşahidəçi qeydə alınıb. Seçkilərə 5 gün qalana kimi müşahidəçi olmaq istəyənlər müraciət edərlərsə, onların müraciətinə baxılacaq. 4 saylı Naxçıvan Şəhər Dairə Seçki Komissiyasının 10, 12, 15, 17 və 28 nömrəli məntəqələrində veb-kameralar quraşdırılıb. Bu da seçki prosesinin internet üzərindən izlənməsinə imkan verəcək.

Qeyd edək ki, bu dairə üzrə Dairə Seçki Komissiyası qanunvericiliyə uyğun qaydada onun ərazisində fəaliyyət göstərən məntəqələrin seçkiyə hazırlığını tam təmin edib. Məntəqə üzvləri gündəlik olaraq Seçki Məcəlləsinə uyğun şəkildə hazırlıq işlərini aparırlar.

4-36 saylı seçki məntəqəsində olduq. Bu məntəqədə seçkilərə hazırlanmış məlumat lövhəsi vasitəsilə məntəqənin tərkibi, dislokasiyası, iş planı, vəzifə bölgüsü, deputatlığa qeydə alınmış namizədlərlə tanış olmaq mümkündür. Məntəqədə səs verəcək 1474 nəfər seçicinin siyahısı dəqiqləşdirilib. Onlardan 35 nəfəri ilk dəfə səs verəcək seçicilərdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər üzrə 25-5 nömrəli məntəqə seçki komissiyası Naxçıvan şəhərinin Əliabad qəsəbəsindəki 16 nömrəli tam orta məktəbin binasında yerləşir. Məntəqə seçki komissiyasının sədri Məlahət Rüstəmova bildirdi ki, bu məntəqədə 1359 seçici səs verəcək. Onların 33 nəfəri ilk dəfə səs verənlərdir. M.Rüstəmova onu da diqqətə çatdırdı ki, məntəqə seçki komissiyası üzvlərinin maarifləndirilməsi məqsədilə müntəzəm olaraq treninqlər keçirilir və bu tədbir seçki gününə qədər davam etdiriləcək. İlk dəfə səs verənlərlə də maarifləndirici tədbir keçiriləcək.

Seçkilərin şəffaf və demokratik şəkildə keçirilməsi üçün hərtərəfli şərait yaradılıb, məntəqələr lazım olan bütün avadanlıqlarla təchiz edilib. Artıq seçki gününü və yerini göstərən bildirişlər paylanılıb.

**Muxtar MƏMMƏDOV**

### 20 oktyabr energetika işçilərinin peşə bayramıdır

## Naxçıvanda enerji təhlükəsizliyi təmin edilmişdir









*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 13 oktyabr tarixli Sərəncamına əsasən, hər il oktyabrın 20-si ölkəmizdə energetika sahəsində çalışanların peşə bayramı günü kimi qeyd olunur.*

Azərbaycanda iqtisadiyyatın bütün sahələrində olduğu kimi, elektroenergetikanın inkişafı da ümummilli liderimizin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyev ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycanın enerji sisteminin təkmilləşdirilməsi, ölkədə enerji təhlükəsizliyinin təmin olunması istiqamətində gərgin fəaliyyət göstərmişdir. O vaxta qədər ölkədə bütün elektrik stansiyalarının ümumi gücü 2200 meqavat təşkil edirdi və elektrik enerjisi təminatının tam ödənilməsində problemlər mövcud idi. Ümummilli liderin səyləri və təşkilatçılığı sayəsində hər birinin gücü 300 meqavatlıq 8 blokdan ibarət olan Azərbaycan Dövlət Rayon Elektrik Stansiyasının tikintisinə başlanıldı və hər il bir bloku istifadəyə verilən bu stansiya sayəsində Azərbaycan enerji sistemi bölgənin aparıcı sisteminə çevrildi. Həmin dövrdə İran İslam Respublikası ilə birgə tikilən 22 meqavatlıq Araz SES, 330 kilovoltluq Mingəçevir-Abşeron hava elektrik verilişi xətləri, yeni transformator yarımstansiyaları istismara verilmişdir. Müstəqillik illərində də ümummilli liderimiz ölkəmizdə enerji təhlükəsizliyinin təmin olunmasını diqqət mərkəzində saxlamış, bu sahənin maddi-texniki təchizatı xeyli gücləndirilmişdir.

Ulu öndərin siyasi kursunu layiqincə davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkə iqtisadiyyatının bütün sahələri, o cümlədən elektrik enerjisi üzrə proqramlar hazırlanaraq uğurla icra edilir. Regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının həyata keçirilməsi iqtisadiyyatın hərəkətverici qüvvəsi olan elektrik enerjisi sistemində də inkişafı təmin etmişdir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində blokada şəraitində yaşayan Naxçıvan ciddi enerji böhranı ilə üzləşən zaman ulu öndərin apardığı danışıqlar nəticəsində 1993-cü ildə İran İslam Respublikasından 42 meqavat, Türkiyə Respublikasından isə 63 meqavat elektrik enerjisi nəqlinə başlanılmışdır. Bu dövrdən başlayaraq muxtar respublikada müxtəlif gücə malik olan transformator yarımstansiyaları quraşdırılmış, yüksəkgərginlikli elektrik verilişi xətləri çəkilmiş, idxal olunan elektrik enerjisinin itkisiz paylanması, avadanlıqların yüklənməsinin qarşısını almaq və enerji təchizatının etibarlılığını yüksəltmək məqsədilə ardıcıl tədbirlər görülmüşdür.

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” 2005-ci il 2 may tarixli Sərəncamına uyğun olaraq, 2006-cı ildə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında dizel yanacağı ilə işləyən enerji turbinləri təbii qaz ilə işləmə rejiminə keçirilmiş, 220 kilovoltluq “Babək” yarımstansiyasında yenidənqurma işləri aparılmışdır. Sərəncama uyğun olaraq, həmin il ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası və Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə yeni su elektrik stansiyası istismara verilmişdir. 2010-cu ildə isə 22 meqavat gücündə Biləv Su Elektrik Stansiyasının, ötən il isə Arpaçay Su Anbarı üzərində 20,5 və 1,4 meqavat gücündə 2 su elektrik stansiyasının tikilib istifadəyə verilməsi Naxçıvanın etibarlı enerji təminatına səbəb olmuşdur. Bütün bunların nəticəsidir ki, bir zamanlar yalnız idxal hesabına elektrik enerjisinə olan tələbatını qismən ödəyən Naxçıvanda bu gün daxili istehsal hesabına ən ucqar dağ kəndi belə, fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin olunur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Naxçıvanın enerji təminatı məsələləri ön plandadır. Biz hamımız yaxşı xatırlayırıq ki, vaxtilə Naxçıvanı elektrik enerjisi ilə təmin etmək üçün çox böyük problemlər mövcud idi. Ulu öndərin rəhbərliyi ilə Naxçıvanın enerji təhlükəsizliyi məsələlərinin həllinə start verildi və bu gün biz bu siyasəti uğurla davam etdiririk. Son illərdə Naxçıvanda 5 elektrik stansiyası tikilmişdir. Demək olar ki, Naxçıvanda enerji təhlükəsizliyi məsələləri tam şəkildə öz həllini tapmışdır”.***

Enerji təhlükəsizliyi sahəsində həyata keçirilən tədbirlər əhalinin tələbatını ödəməklə yanaşı, həm də Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın davamlı inkişafını təmin etmişdir. Buna görə də enerji təchizatının yaxşılaşdırılması və müasirləşdirilməsi məsələsi daim diqqət mərkəzində saxlanılır. Muxtar respublikada mövcud elektrik stansiyalarının, yarımstansiya və elektrik verilişi avadanlıqlarının təmiri ilə yanaşı, yeni elektrik stansiyalarının tikilib istifadəyə verilməsi sahəsində də mühüm işlər görülür. Hazırda Araz çayı üzərində derivasiyatipli 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilir. Həmçinin 14 meqavat gücündə Tivi Su Elektrik Stansiyasının tikintisi məqsədilə layihələndirmə işləri aparılır.

Naxçıvanın əlverişli iqlim və coğrafi şəraiti alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. Hazırda bu imkanlardan səmərəli istifadə olunur. Muxtar respublikada nəinki Azərbaycanda, hətta Qafqaz və region ölkələrində ən böyük Günəş elektrik stansiyası inşa olunur. Babək rayonunun Xal-xal kəndində 35 hektarlıq ərazidə tikilən Günəş elektrik stansiyasında ən müasir Günəş panelləri, invertor və transformatorlar quraşdırılır. Stansiyanın gücü 20 meqavat olacaq və burada il ərzində 30 milyon kilovat-saat elektrik enerjisi istehsal ediləcəkdir.

Elektrik enerjisi sahəsinin inkişafını daim diqqət mərkəzində saxlayan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Muxtar respublikada il ərzində istehsal olunan elektrik enerjisinin çox hissəsi bərpa olunan enerji mənbələri, yəni su elektrik stansiyaları hesabına ödənilir. Bu da elektroenergetikanın inkişafı sahəsində qazanılan ən mühüm nailiyyətlərdən biridir. Hazırda yeni Günəş elektrik stansiyası qurulur. Bütün bunlar muxtar respublikada gələcək tələbat da nəzərə alınmaqla uzun müddət elektrik enerjisi təminatının daxili istehsal hesabına ödənilməsinə imkan verəcəkdir”.***

Muxtar respublikada istehsal olunan elektrik enerjisinin istehlakçılara fasiləsiz və keyfiyyətli çatdırılması məqsədilə yeni transformator yarımstansiyaları tikilir, mövcud olanlar yenidən qurulur. Son illər “Xal-xal”, “Koroğlu”, “Xalçaçılıq”, “Şərur”, “Naxçıvan” və “Ordubad” transformator yarımstansiyaları müasir şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Bu il isə Kəngərli Rayon Elektrik Şəbəkəsinin inzibati binası və 35 meqavolt-amperlik “Qıvraq” yarımstansiyası, Babək rayonu ərazisində “Nehrəm” yarımstansiyası tikilib istifadəyə verilmişdir. Ümumiyyətlə, 2015-ci ilin ötən 9 ayında muxtar respublikanın şəhər və kəndlərində 31 ədəd yeni transformator qoyulmuş, 68 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq elektrik verilişi xətləri çəkilmiş, 6 kilometr uzunluğunda hava elektrik verilişi xətləri yeraltı kabellərlə əvəz edilmişdir.

Bu gün elektroenergetika sahəsində ixtisaslı kadr hazırlığına da xüsusi diqqət yetirilir. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikada elektrik stansiyalarının tikintisi və yenidən qurulması, elektrik təchizatı avadanlıqlarının quraşdırılması, bütövlükdə, yerli mütəxəssislər tərəfindən həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncamı bu sahədə mühüm nailiyyətlərin əldə olunmasına şərait yaradır. Sərəncamın icrasına uyğun olaraq, Naxçıvan Dövlət Universitetində və Naxçıvan Dövlət Texniki Kollecində müvafiq ixtisaslar üzrə təhsil alan tələbələr Naxçıvan Dövlət Energetika Agentliyinə hamiliyə verilmişdir. Gənclərin istehsal və iş sahələrinə cəlbi onların təcrübi biliklərinin möhkəmləndirilməsinə və peşəkar kadr kimi yetişməsinə imkan verir.

Muxtar respublikanın energetikləri elektrik enerjisindən səmərəli istifadə olunması, enerji itkisinin minimum səviyyədə saxlanılması və sərfiyyata uyğun enerji dəyərinin ödənişinin təmin olunmasında səylə çalışırlar. Bütün işlədicilərin istifadə etdiyi elektrik enerjisinin dəqiq qeydiyyatını aparmaq üçün rəqəmsal elektron sayğaclar qoyulur, enerji haqqının sayğacların göstəriciləri əsasında ödənilməsi təmin edilir. Hazırda Naxçıvan şəhərində Smartkarttipli sayğacların quraşdırılması davam etdirilir. Artıq mənzillərdə 6500 ədəd belə sayğac qoyulmuşdur. Həmçinin əməkdaşlar tərəfindən elektrik enerjisindən səmərəli istifadə edilməsi, israfçılığın, elektrik enerjisindən qanunsuz və sayğacdankənar istifadə edilməsinin qarşısının alınması məqsədilə mütəmadi reydlər keçirilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin və onun yerli strukturlarının kollektivləri yaşayış məntəqələrinin, istehsal və xidmət sahələrinin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchizatını daim diqqət mərkəzində saxlayırlar. Energetika işçiləri bundan sonra da muxtar respublika iqtisadiyyatının inkişafına öz töhfələrini verəcəklər.

***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin mətbuat xidməti***

## Muxtar respublika gömrük sistemi modernləşdirilir

*“Naxçıvanterminalkompleks” Birliyi üçün müasir infrastruktur yaradılıb*

*Muxtar respublika gömrük sistemində modern infrastrukturun qurulması, xidmətin səmərəli təşkili üçün lazımi iş şəraitinin yaradılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Muxtar respublika gömrük sisteminin modernləşməsi prosesi “Naxçıvanterminalkompleks” Birliyi üçün həyata keçirilən yeni infrastruktur layihəsinin timsalında da özünü göstərir.*



Qeyd edək ki, Culfa şəhərində yerləşən “Naxçıvanterminalkompleks” Birliyi muxtar respublikanın yaşı bir əsrdən artıq olan, xüsusən də sovet dövründə xarici iqtisadi əlaqələrdə mühüm rol oynayan gömrük orqanlarındandır. Bu gömrük orqanı ötən əsrin əvvəllərində Rusiya Xarici Əlaqələr Departamentinin yerli şöbəsi kimi məhz Culfa şəhərində fəaliyyətə başlamışdır. Sovet İttifaqından bu istiqamətdə xaricə hərəkət edən və xaricdən gələn qatarların sənədlərinin yoxlanılması və yola salınması birbaşa Moskvaya tabe olan bu qurum tərəfindən həyata keçirilmişdir. 1905-1907-ci illərdə bu orqanın fəaliyyəti üçün lazımi şərait yaradılmış, xidməti bina tikilmişdir. “Naxçıvanterminalkompleks” Birliyi bu vaxta qədər həmin binada fəaliyyət göstərmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin strukturunda təsərrüfathesablı şəkildə fəaliyyət göstərən bu qurum dövlətin iqtisadi maraqlarının qorunması istiqamətində geniş səlahiyyətlərə malikdir. Birlik tərəfindən gömrük prosedurları altında yerləşdirilməli olan mal və nəqliyyat vasitələrinin bəyan edilməsi və gömrük bəyannamələrinin tərtib edilməsi üzrə gömrük brokeri xidməti göstərilir, idxal, ixrac və tranzit yüklərin tərəzilərdə çəkilməsi təmin olunur. Hüquqi və fiziki şəxslər tərəfindən xarici dövlətlərə, o cümlədən xarici dövlətlərin ərazisindən keçməklə Azərbaycan Respublikasının digər bölgələrinə yüklərin daşınmasının təşkili və bu işin təkmilləşdirilməsi məqsədilə lazımi tədbirlərin görülməsi, avtomaşınlara beynəlxalq yük qaiməsinin yazılması, qanunvericiliklə müəyyən olunmuş qaydada muxtar respublika ərazisində gömrük və müvəqqəti saxlanc anbarlarının, rüsumsuz ticarət və firma mağazalarının təsis və fəaliyyətinin təmin edilməsi, müvafiq dövlət orqanları tərəfindən müsadirə edilmiş malların və nəqliyyat vasitələrinin gömrük hərracları vasitəsilə realizəsi də birliyin əsas fəaliyyət istiqamətlərindəndir.

“Naxçıvanterminalkompleks” Birliyi üçün yeni infrastrukturun qurulması xidmətlərin keyfiyyətlə yerinə yetirilməsinə, gömrük əməkdaşları üçün əlverişli iş şəraitinin yaradılmasına xidmət edir. Yeni infrastruktur zirzəmi ilə birlikdə üç mərtəbədən ibarət olan inzibati bina və anbar kompleksindən ibarətdir. Gömrük brokeri xidmətinin göstərildiyi rəsmiləşdirmə zalı birinci mərtəbədə yerləşir. Burada həmçinin xarici iqtisadi fəaliyyət iştirakçılarına və digər şəxslərə hüquqi dəstək göstərilir. Bəyanetmə Azərbaycan Gömrük sisteminin Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi üzərindən aparılır. Burada elektron növbə sistemi mövcuddur.

Növbətçinin xidmət yerində barmaq izi və ya üz tanıma ilə qeydiyyat aparılmaqla əməkdaşların işə davamiyyətinə elektron qaydada nəzarət olunur. Muxtar respublika gömrük sistemində formalaşdırılmış işə davamiyyətə elektron nəzarət sistemi imkan verir ki, birliyin digər gömrük orqanlarında xidmət edən əməkdaşlarının da işə davamiyyətinə nəzarət edilə bilsin. Anbarlar da daxil olmaqla ərazidə quraşdırılmış kameraların görüntülərinə də növbətçi hissədə qoyulmuş müşahidə monitorunda baxılır.

İnzibati binanın ikinci mərtəbəsində 40 yerlik iclas zalı və digər xidməti otaqlar yerləşir. Foyedə gündəlik məlumatların və mühüm yeniliklərin gömrük orqanı əməkdaşlarına operativ qaydada çatdırılması üçün Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsindən idarə olunan elektron məlumat və qəzet guşələri vardır.

Birliyin ərazisində qurulan anbar kompleksi muxtar respublikamızda gömrük anbarı işinin müasir tələblər səviyyəsində təşkilinə və xidmətin təkmilləşdirilməsinə imkan verir. Anbar kompleksi bir açıqtipli, yəni istənilən şəxslər tərəfindən istifadə oluna bilən və yeddi qapalıtipli, yəni müəyyən şəxslərin mallarının saxlanması üçün nəzərdə tutulan gömrük anbarlarından, o cümlədən xüsusi şərait tələb edən məhsulların saxlanılması üçün iki ədəd soyuducu anbardan ibarətdir. Anbar kompleksinin hər iki tərəfində platforma mövcuddur. Platformalar istər qatarla, istərsə də avtomaşınlarla daşınan yüklərin yoxlanılması, yüklənib-boşaldılması üçündür. Qeyd edək ki, “Naxçıvanterminalkompleks” Birliyi muxtar respublikamızda dəmir yolu ilə daşınacaq yüklərə gömrük nəzarətini həyata keçirmək imkanına malik yeganə gömrük orqanıdır.

Platformanın yaxınlığında inşa olunmuş birmərtəbəli binada isə xidməti otaqlar və yeməkxana vardır.

Ərazidə yüklərin çəkilməsi üçün 60 tonluq tərəzi quraşdırılmış, mövcud dəmiryol xətti yenidən qurulmuşdur.

Kompleksin həyətində yaşıllaşdırma və abadlıq işləri görülmüş, müasir işıqlandırma sistemi qurulmuş, 12 ədəd təhlükəsizlik kamerası quraşdırılmışdır.

Təbii ki, “Naxçıvanterminalkompleks” Birliyi üçün yeni gömrük kompleksinin qurulması muxtar respublikaya gələn, tranzit keçən və bu ərazidən çıxan yüklərə və nəqliyyat vasitələrinə həyata keçirilən gömrük nəzarətinin səmərəliliyini artıracaqdır. Yaradılmış yüksək iş şəraiti göstərilən xidmətlərin keyfiyyətinin artmasına, həmçinin gömrük rəsmiləşdirilməsinin daha da sürətlənməsinə şərait yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## "Tarixi İpək Yolu və Naxçıvanın iqtisadi-mədəni əlaqələrinin inkişafı məsələləri" mövzusunda beynəlxalq konfrans yüksək səviyyədə keçirilib

### *Beynəlxalq tədbirin iştirakçıları bunu xüsusi vurğuladılar*

***Xəbər verdiyimiz kimi, oktyabrın 16-17-də "Naxçıvan" Universitetində "Tarixi İpək Yolu və Naxçıvanın iqtisadi-mədəni əlaqələrinin inkişafı məsələləri" mövzusunda beynəlxalq konfrans keçirildi. "Naxçıvan" Universitetinin, AMEA Naxçıvan Bölməsinin, Naxçıvan Dövlət Universitetinin və Türkiyənin Ərdahan Universitetinin təşkilatçılığı ilə keçirilən beynəlxalq konfransda 5 ölkənin 35 elm və təhsil müəssisəsindən 100-dən çox görkəmli elm xadimlərinin, mədəniyyət işçilərinin və tədqiqatçıların iştirak etməsi onun əhəmiyyətini daha da artırdı.***

Xarici ölkələrdən tədbirdə iştirak edən tanınmış elm xadimləri ilə söhbətimizdə də onlar tədbirin əhəmiyyətini vurğuladılar, təşkilatçılığın çox yüksək səviyyədə olduğunu qeyd etdilər. Bu barədə bizimlə fikirlərini bölüşən qardaş ***Türkiyə Respublikasının Ərdahan Universitetinin prorektoru, Qafqaz Universitetlər Birliyinin baş katibi, professor Orhan SÖYLƏMƏZ*** dedi:



– "Tarixi İpək Yolu və Naxçıvanın iqtisadi-mədəni əlaqələrinin inkişafı məsələləri" mövzusunda keçirilən beynəlxalq konfransın yüksək səviyyədə baş tutması məni qürurlandırdı. Hər bir detala xüsusi diqqət yetirilməsi, təşkilatçılığın yüksək səviyyədə olması bir daha göstərdi ki, Naxçıvan Muxtar Respublikasında beynəlxalq tədbirlərin keçirilməsi məsələsində bir sıra ölkələrə nümunə olacaq çox böyük təcrübə mövcuddur.

Beynəlxalq konfransda müzakirə olunan məsələlər də önəmli sahələri əhatə etdi. İstər plenar iclasda, istərsə də bölmə iclaslarında əhəmiyyətli çıxışlar oldu, ciddi elmi müzakirələr aparıldı və mühüm elmi nəticələr əldə edildi. Qədim Şərq-Qərb İpək Yolu dəhlizinin yeni şəraitdə bərpası, nəqliyyat-kommunikasiya infrastrukturlarının yenidən qurulması və inkişaf etdirilməsi, yol üzərində olan ölkələr arasında iqtisadi-mədəni əlaqələrin inkişafının önəmli olduğu vurğulandı, "Türk qapısı", "Şərqin qapısı" adlandırılan Naxçıvanın, həqiqətən də, "İpək Yolu qapısı" olduğu qeyd edildi.

Burada naxçıvanlı həmkarlarımın fəallığı da diqqətimdən yayınmadı. Onlar konkret elmi faktlar ortaya qoyur, iqtisadi-mədəni və tarixi məsələləri çox aydın bir şəkildə izah edir, istər Böyük İpək Yolunun, istərsə də bu yol üzərində çox mühüm geostrateji mövqedə yerləşən Naxçıvanın əhəmiyyətini vurğulayır, gərcü məruzələri ilə bizi heyrətləndirirdilər. Bu, Naxçıvanda elmin inkişafını göstərən əhəmiyyətli amildir.

Yeri gəlmişkən, muxtar respublikada təhsilə, elmin inkişafına böyük diqqət yetirildiyinin, bu sahənin dövlət qayğısı ilə əhatə olunduğunun da şahidi oldum. Burada bizə məlumat verildi ki, "Naxçıvan" Universiteti üçün universitet şəhərciyi ötən ay istifadəyə verilib. Bizi şəhərcik ilə tanış etdilər. Həqiqətən də, çox gözəldir. Binaların müasirliyi, maddi-texniki təminatın çox yüksək səviyyədə olması göz qabağında idi. Müşahidələrimə əsasən inamla deyə bilərəm ki, bu gün "Naxçıvan" Universiteti üçün yaradılmış bu şərait ancaq dünyanın tanınmış universitetlərində ola bilər. Bundan sonra qalır təhsilin səviyyəsini də nüfuzlu dünya universitetləri səviyyəsinə çatdırmaq. Fikrimcə, Naxçıvandakı elmi potensial buna tam imkan verir.

Onu da deyim ki, yeni bərpa olunan İpək Yolu artıq, sadəcə, quru yol deyil, "Dəmir İpək Yolu, Dəniz İpək Yolu, Hava İpək Yolu, Enerji İpək Yolu, Fiber-optik İpək Yolu, Mədəniyyətlərin İpək Yolu" və sair kimi ifadələrlə yeni məzmun qazanmış nəhəng layihədir. Bu məsələdə təhsilin rolunu xüsusi qeyd etmək istərdim. Bizim Qafqaz Universitetlər Birliyi də təhsildə qarşılıqlı təcrübə mübadiləsini əsas götürüb. 2009-cu ildə yaradılan və bu il may ayından etibarən ətrafında birləşən universitetlərin sayı 92-yə çatan birliyin əsas məqsədi də məhz təcrübə mübadiləsidir. Qafqaz Universitetlər Birliyi bu regionda yaşayan və ortaq mədəniyyətləri paylaşan Azərbaycan, türk, gürcü xalqlarının elmi-intellektual inkişafında, tələbə-gənclər arasında elmi-mədəni tərəfdaşlığın möhkəmlənməsində, təcrübə mübadiləsinin genişləndirilməsində mühüm rol oynayır. 2013-2014-cü tədris ilindən həyata keçirilən Mövlana Mübadilə Proqramı bu baxımdan əhəmiyyətlidir. Artıq Türkiyədə 54 ölkənin 1069 universiteti ilə Mövlana Mübadilə Proqramı ilə bağlı protokol imzalanıb. Bu, çox böyük bir rəqəmdir.

Onu da deyim ki, Qafqaz Universitetlər Birliyinin 7 təsisçisindən biri də Naxçıvan Dövlət Universitetidir. 2011-ci ildə "Qafqaza gənc baxışlar" adlı konfransımızın ev sahibi də Naxçıvan Dövlət Universiteti olmuşdur. Həmin il mən də konfransda iştirak etmək üçün Naxçıvana gəlmişdim. Bunu xüsusi qeyd etmək istəyirəm ki, həmin ildən bu tərəfə muxtar respublika müsbət mənada inanılmaz dərəcədə dəyişib, gözəlləşib. Möhtəşəm bir yol infrastrukturu yaradılıb, Naxçıvan şəhəri xeyli gözəlləşib. Sürətli inkişaf hər tərəfdə özünü göstərir. Yolboyu hara baxırsan abad, gözəl mənzərələr görürsən. Bu, o deməkdir ki, Naxçıvan Muxtar Respublikası artıq Cənubi Qafqazın ən gözəl diyarlarından birinə çevrilib. Bu mənada, Azərbaycanı ürəkdən sevən bir insan kimi Naxçıvanla qürur duyuram.

***Erbulat SMAQULOV – Qazaxıstan Milli Elmlər Akademiyası Etnoqrafiya İnstitutunun professoru:***



– "Tarixi İpək Yolu və Naxçıvanın iqtisadi-mədəni əlaqələrinin inkişafı məsələləri" mövzusunda "Naxçıvan" Universitetində keçirilən beynəlxalq konfrans böyük əhəmiyyətə malikdir. Bu mövzu bizə çox yaxındır, çünki artıq uzun illərdir ki, Azərbaycanda olduğu kimi, Qazaxıstanda da bu sahədə işlər aparılır.

Bu konfransın əhəmiyyətinə gəlincə, bir məqama diqqət çəkmək istərdim. Məlum olduğu kimi, ötən dövrlərdə YUNESKO-nun hazırladığı və bir çox böyük ölkələrin elmi, mədəni və ictimai fəaliyyətini əhatə edən "Böyük İpək Yolu: mədəniyyətlərin dialoqu" adlı çoxsaylı proqramlar çərçivəsində beynəlxalq ekspedisiya İpək Yolu ilə bağlı karvan yolları ilə hərəkət edərək Mərkəzi Asiya, Çin, Monqolustan, Qazaxıstan, Azərbaycan, Ukrayna və digər ölkələrdə olub. Həmin proqrama görə, Moskvada, Səmərqənddə, Ürgəncdə, Donetskdə, Ulan-Batorda toplantılar keçirilib. Bu gün belə beynəlxalq simpozium və konfranslar, demək olar ki, dünyanın ən inkişaf etmiş ölkələrində hər il keçirilməkdədir – o cümlədən Amerikada və Avropada. Bu mənada "Naxçıvan" Universitetində "Tarixi İpək Yolu və Naxçıvanın iqtisadi-mədəni əlaqələrinin inkişafı məsələləri" adlı beynəlxalq konfransın keçirilməsi həm də regionun bu əhəmiyyətli mövqeyini beynəlxalq ictimaiyyətin və YUNESKO kimi nüfuzlu bir qurumun diqqətinə çatdırmaq baxımından əhəmiyyətlidir.

Məlumdur ki, İpək Yolu, sadəcə, ticarət əhəmiyyətinə görə deyil, həm də mədəniyyətlərarası münasibətlərin inkişafına da ciddi təsir göstərib. Naxçıvan ərazisinin əfsanəvi İpək Yolu üzərində mühüm məntəqə kimi təbliğ olunması bölgədə turizmin inkişafına böyük təsir göstərəcəkdir. Bu yolla həm də bölgəyə olan iqtisadi, mədəni və elmi maraqlar daha da artacaqdır.

İpək Yolu bizim xalqları həm iqtisadi-ticarət, həm də mədəniyyət əlaqələri baxımından yaxınlaşdırır, birləşdirir. Bizim tarixi köklərimizin bir olması, yəni qardaş xalqlar kimi ortaq mədəniyyətimizin mövcudluğu bu məsələdə aparıcı rol oynayır. Ona görə də mən çox şadam ki, belə yüksəksəviyyəli bir beynəlxalq tədbirin iştirakçısı oldum. Və mən həm də ona görə şadam ki, Türk dünyasının çox əhəmiyyətli bir regionu olan qədim Naxçıvanı, onun tarixi abidələrini gördüm.

Mən həm də Türküstan Arxeoloji Ekspedisiyasına rəhbərlik edirəm. Tarixi Türküstan Qazaxıstanın cənubunda, Sırdərya çayının sahilində yerləşir. Naxçıvana gələndə də diqqətimi daha çox buradakı tarixi abidələr və qədim diyarda aparılan arxeoloji qazıntıların nəticələri cəlb etdi. Səmimiyyətlə qeyd edim ki, Naxçıvanda tarixi keçmişə çox böyük əhəmiyyət verildiyinin şahidi oldum. Tarixi abidələr yüksək səviyyədə bərpa olunub. Onlar çox gözəl qorunub saxlanılıb. Qardaş xalqın övladı kimi burada tarixi abidələrə yüksək diqqətin göstərilməsi məni hədsiz dərəcədə sevindirdi.

***Naxçıvanda bir daha şahidi oldum ki, Azərbaycan xalqı çox qonaqpərvər bir xalqdır. Mən burada doğma münasibətin, böyük mədəniyyətin, bizim xalqlarımız arasında tarixə söykənən doğma dostluq, qardaşlıq hisslərinin şahidi oldum. İpək Yolu üzərində yerləşən xalqlar eyni tarixi prosesləri keçiblər və birbirinə yaxın olan mədəniyyət formalaşdıra biliblər. Ümid edirəm ki, iqtisadi, mədəni körpü rolunu oynayacaq İpək Yolunun bərpası bizi daha da yaxınlaşdıracaqdır.***

**Rauf ƏLİYEV**

---

***"Naxçıvan" Universitetində "Tarixi İpək Yolu və Naxçıvanın iqtisadi-mədəni əlaqələrinin inkişafı məsələləri" mövzusunda keçirilən beynəlxalq konfransın ikinci günündə müxtəlif ölkələrdən gələn elm adamları universitetin Tarix müəllimliyi ixtisasının tələbələrinə ustad dərsləri keçiblər.***

## Beynəlxalq konfransın iştirakçıları universitetdə ustad dərsləri keçiblər



Ustad dərslərində ilk əvvəl Qazaxıstan Milli Elmlər Akademiyasının Etnoqrafiya İnstitutunun professoru Erbulat Smaqulov "İpək Yolu üzərində yerləşən ölkələrin tarixi, arxeoloji abidələri" mövzusunda mühazirə oxuyub. Bildirilib ki, Böyük İpək Yolu adlanan və tarixən ölkələr, xalqlar arasında iqtisadi, ticarət və mədəni əlaqələrin həyata keçirilməsində müstəsna əhəmiyyəti olan bu yolun keçdiyi ərazilərdən biri də Şərqlə Qərb arasında mühüm məntəqə sayılan, Azərbaycanın qədim zamanlardan inkişaf etmiş mədəniyyət, ticarət, sənətkarlıq mərkəzlərindən olan Naxçıvan ərazisidir. Yaxın Şərqin ticarət mərkəzləri ilə Cənubi Qafqazı, Orta Asiyanı və Uzaq Şərq ölkələrini əlaqələndirən əsas karvan yollarından biri Naxçıvan ərazisindən keçib. Naxçıvan bölgəsi nəinki Azərbaycan, eləcə də Cənubi Qafqaz üçün çox mühüm coğrafi strateji mövqedə yerləşən ərazidir. O da vurğulanıb ki, Naxçıvan blokadada olmasına baxmayaraq, möhtəşəm inkişafa nail olub. Bu qədim diyarın böyük turizm potensialı, qədim tarixi abidələri Naxçıvana olan marağı artırıb.

Erbulat Smaqulov daha sonra Qazaxıstanda aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən tarixi abidələr və hazırda araşdırılması davam etdirilən işlər barədə də tələbələrə məlumat verib.

Bundan başqa, Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru Həcər Hüseynovanın "Mir Cəlalın bədii əsərlərinin dil və üslub xüsusiyyətləri", Ərzurum Atatürk Universitetinin professoru Kerem Karabulutun "Türkiyə iqtisadiyyatının tarixi barədə" mövzularında keçdikləri ustad dərsləri tələbələr tərəfindən böyük maraqla qarşılanıb.

**Nuray ƏSGƏROVA**

---

## Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə görüşlər davam etdirilir



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il iyulun 27-də imzaladığı "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına uyğun olaraq, müvafiq nazirlik, komitə və digər təşkilatların əməkdaşları Naxçıvan Dövlət Universitetində olur, tələbələrlə görüşürlər. Sərəncamdan irəli gələn vəzifələrin icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin tədbirlər planına uyğun olaraq, adıçəkilən nazirliyin əməkdaşları Naxçıvan Dövlət Universitetində olub, ali məktəbin Sosial idarəetmə və hüquq fakültəsinin Hüquqşünaslıq, Dövlət və bələdiyyə idarəetməsi ixtisasları üzrə təhsil alan tələbələri ilə görüşüblər.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət şöbəsinin rəisi, kiçik ədliyyə müşaviri Emin Səfərov çıxışında deyib ki, ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi hüquq və bələdiyyə sahəsində də bilikli, həmçinin öz ixtisasına dərindən yiyələnən gənc kadrların hazırlanmasına böyük imkanlar yaradacaq.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin Naxçıvan filialının rəis müavini, ədliyyə müşaviri Elman Abbasov bildirib ki, "Azərbaycanın tutduğu yol müstəqil Azərbaycan Respublikası, demokratik hüquqi cəmiyyət qurmaq yoludur", – deyən ümummilli lider Heydər Əliyev digər sahələrdə olduğu kimi, hüquq sahəsində də islahatların əsasını qoyub, ölkəmizdə ədliyyə sisteminə hərtərəfli diqqət və qayğı göstərib. Ümummilli liderimizin dövlət quruculuğu xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən tədbirlər nəticəsində ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi üçün mühüm qərarlar qəbul olunub. Ölkə başçısının insan hüquqlarının etibarlı qorunması, hüquqi xidmətin yaxşılaşdırılması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması barədə tapşırıqlarının icrası üzrə görülmüş tədbirlər nəticəsində Naxçıvanda ədliyyə sistemi öz inkişafının yeni, müasir mərhələsinə qədəm qoyub.

Nazirliyin Bələdiyyələrlə İş Mərkəzinin baş məsləhətçisi, ədliyyə müşaviri Səttar Zamanov "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət" mövzusunda danışaraq deyib ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra ictimai həyatın bütün sahələrində köklü islahatlar həyata keçirilib. Azərbaycanda yerli özünüidarəetmə sistemi formalaşdırılıb, bələdiyyələr üçün lazımi şərait yaradılıb. Bu təsisatın yarandığı ötən dövr ərzində ölkənin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da bələdiyyələr hərtərəfli qayğı ilə əhatə olunub. Eyni zamanda vurğulanıb ki, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi qanunvericiliklə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinə həvalə olunub.

Görüş zamanı tələbələrə hüquq ədəbiyyatı və bələdiyyələrin fəaliyyəti ilə bağlı 5 adda 40 ədəd kitab hədiyyə edilib, onları maraqlandıran suallara aydınlıq gətirilib.

**Mina QASIMOVA**

---

## Həmyerlimizin VIII Beynəlxalq Atatürk konqresindəki məruzəsi maraqla qarşılanıb

Türkiyə Cümhuriyyətinin paytaxtı Ankara şəhərində yerləşən, Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumuna tabe olan Atatürk Araşdırma Mərkəzi 5 ildən bir Beynəlxalq Atatürk konqresi təşkil edir. Bu elmi tədbirdə dünya alimləri tərəfindən Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün dövrü, mühiti, elmi və mədəni-siyasi irsinə müraciət edilir, bu sahədəki araşdırma və tədqiqatlar müzakirə və təhlil olunur.

Belə tədbirlərdən növbətisi, VIII Atatürk konqresi bu günlərdə Azərbaycan Respublikasının qədim Gəncə şəhərində keçirilib. Konqresdə dünyanın 13 dövlətini təmsil edən 100-ə qədər elm adamı iştirak edib. Tədbirin keçirildiyi iki gün ərzində tarixi araşdırmalara əsaslanan maraqlı məruzələr dinlənilərək XIX-XX əsrlərin aktual problemləri müzakirə edilib.

Beynəlxalq elmi məclisin açılış mərasimində Azərbaycan Prezidenti cənab İlham Əliyevin iştirakçılara təbrik məktubu oxunub. Bağlanış mərasimində isə konqres iştirakçılarının dünya ictimaiyyətinə Azərbaycan, rus, türk və ingilis dillərində müraciəti qəbul olunub. Konqresdə AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev "Azərbaycanın Türkiyədəki ilk səfiri: İbrahim Əbilov" mövzusunda məruzə edib. Məruzə elm adamları tərəfindən maraqla qarşılanıb.

Konqres iştirakçıları Gəncə şəhərindəki Nizami Gəncəvi məqbərəsini, Cavad xan abidə kompleksini, Şah Abbas məscidini, Qax rayonunda Yunis Əmrəyə aid olduğu bilinən məzarı və Şəki xan sarayını ziyarət ediblər.

**Xəbərlər şöbəsi**

## Naxçıvan dünən

# Tələbkarlıq gərəkdir

*Yaxşı xatirimdədir, mərhum Hidayət Əliyev güləş üzrə Azərbaycan çempionu olanda və ümumittifaq birinciliyində mükafata layiq yer tutanda əməkdar məşqçi, respublika dərəcəli hakim, mərhum Yusif Əhmədovun yetirməsinin müvəffəqiyyəti barədə Naxçıvanda iftixar dolusu söhbət gedirdi.*

Bəli, Naxçıvan güləş məktəbi 50-ci və 60-cı illərdə Azərbaycan idmanına bir çox mötəbər yarışların qalibləri və mükafatçıları olan bacarıqlı pəhləvanlar vermişdir.

Bakıda Qanlı Yanvar hadisələrinin günahsız qurbanlarından olub paytaxtın Şəhidlər xiyabanında uyuyan keçmiş SSRİ-nin idman ustası Tofiq Novruzovun, eləcə də idman ustalarından İslam Hümbətovun, Rəmzi Mehdiyevin, Bağır Həsənovun, Eldar Xəlilovun və başqalarının adı bu gün də hörmət və məhəbbət hissi ilə çəkilir. Bu pəhləvanlar paytaxt güləşçiləri ilə, demək olar ki, bərabər səviyyədə çıxış etmiş və dəfələrlə Azərbaycan çempionu olmuşlar. Güləşçilərin hazırlığı üçün əla, yaxud nümunəvi şəraitin olmadığı həmin illərdə pəhləvanlar öz üzərlərində ciddi səy və həvəslə çalışır, yarışlarda yüksək nəticələr qazanmağa can atırdılar.

Çox təəssüf ki, 65-ci ilin axırlarından etibarən həmin sahədə bir durğunluq, tənəzzül yaranmağa başladı. Sərbəst üsulla güləşənlərin əldə etdikləri nəticələr bunu bir daha təsdiqləyirdi. Pəhləvanlarımız respublika miqyaslı yarışların mükafatçıları arasında daha az-az görünürdü. Halbuki həmin vaxtlar şəhər və rayonlarımızda yüksək ustalığa malik güləşçilər hazırlamaq üçün yaxşı şərait yaradılmışdı. Sərbəst güləş üzrə bir çox mütəxəssislər indi məhsuldar işlədiklərindən söhbət açır, yaxşı idmançılar hazırladıqlarını bildirirlər. Lakin bu, bir həqiqətdir ki, məsul yarışlarda uğurla çıxış edə biləcək pəhləvanlara bizdə böyük ehtiyac vardır.

Muxtar respublika Dövlət Bədən Tərbiyəsi və İdman Komitəsi rəhbərliyinin məlumatına görə, Naxçıvanda minə yaxın gənc sərbəst güləşlə məşğul olur. İxtisaslaşdırılmış güləş məktəbində, "Dinamo" Cəmiyyətində, Babək, Culfa, Şərur, Şahbuz rayonlarında, Ehtiyat Əmək Qüvvələri Cəmiyyətində 10-dan çox ştatlı və 15-dən artıq saat hesabı ilə çalışan məşqçi fəaliyyət göstərir. Lakin nəticələr müvəffəqiyyətdən xəbər vermir ki, vermir.

"Dinamo"da yaxşı təcrübə toplanmışdır. Burada Bağır Həsənov və Elbrus Həsənovun rəhbərliyi ilə onlarca gənc sərbəst güləşin sirlərinə yiyələnir. Və onu da qeyd edək ki, Naxçıvan şəhər yığma komandasının tərkibi əsasən "Dinamoçular"dan ibarətdir. Lakin son üç ildə bir dəfə də olsun, Azərbaycan yarışlarına komanda göndərilməyibsə, gələcəkdə həmin güləşçilərdən yaxşı nəticələr gözləmək olmaz. Təkcə 24 yaşlı Əsgərxan Novruzovun fəaliyyəti sevindiricidir. Belə ki, son iki ildə o, sabit çıxış edir və Azərbaycanın yığma komandasının tərkibinə daxil edilmişdir.

Ehtiyat Əmək Qüvvələri Cəmiyyətinin sədri Tofiq Mehdiyevin fikrincə, lazımi şərait olmadan yaxşı idmançı hazırlamaq mümkün deyil. Əlbəttə, o, haqlıdır. Lakin bir məsələ də var ki, əgər bölmələrin rəhbərləri günün tələbi baxımından çalışmasalar, yaxud ixtisaslaşdırılmış güləş məktəbinin, rayon uşaq-gənclər idman məktəblərinin məşqçilərinə muxtar respublika Dövlət Bədən Tərbiyəsi və İdman Komitəsi tərəfindən ciddi nəzarət edilməsə, göstərilən nümunəvi şərait yaradılsa belə, yaxın vaxtlarda Naxçıvanda yaxşı güləşçilər, şübhəsiz ki, yetişməyəcəkdir.

Naxçıvan güləş məktəbi uzun illər Azərbaycana qabiliyyətli idmançılar vermişdir. İndi pəhləvanlarımızın keçmiş şöhrətini özünə qaytarmaq qayğısına qalmaq gərəkdir.

**"Şərq qapısı" qəzeti**
**5 yanvar 1994-cü il**

## və bu gün

# Naxçıvanı beynəlxalq yarışlarda bütün çəki dərəcələrində layiqincə təmsil edən güləşçilər yetişib

***Azərbaycan qədim idman ənənələrinə malikdir. Milli ənənələrimizi davam etdirmək isə dövlət siyasətinin əsas istiqamətlərindən biridir. İdman sahəsində atılan addımlar, qazanılan uğurlar idmançılarımızın beynəlxalq arenada ciddi rəqibə çevrilməsinə səbəb olub.***










### Güləşin tarixi

Güləş ən qədim idman növlərindən biridir. Eramızdan 2500 il əvvəl misirlilər, qədim yunanlar, adətən, qumla örtülü meydançada güləşirdilər. İdmançıların çılpaq bədənlərinə qum yapışır və onların bədənləri nisbətən az sürüşkən olurdu. Rəqibinin çiynini, kürəyini və ya dizini üç dəfə yerə vuran güləşçi qalib sayılırdı. Qədim dövrlərdə ayrı-ayrı güləşçilər döşəkdə müxtəlif fəndlər işlədirdilər. Pəhləvanlar bu fəndlərin bəzilərindən indi də istifadə edirlər. Müasir güləşin ən qədim, yəni klassik növü yunan-Roma güləşidir. Xüsusi geyimli güləşçilər xalça üzərinə çıxıb bir-birinin əlini sıxır və güləşməyə başlayırlar. Məqsəd rəqibin kürəyini yerə vurmaqdır. Buna "təmiz qələbə" deyirlər. "Təmiz qələbə" mümkün olmayanda xal hesabı ilə qalib gəlmək mümkündür.

Ölkəmizdə populyar olan yunan-Roma və sərbəst güləş növləri zəngin tarixə və özünəməxsus ənənələrə malikdir. Milli güləşin əksər elementlərini, fənd və mübarizə üsullarını özündə birləşdirən sərbəst güləş dünyada "Amerika güləşi" kimi tanınır. Şübhəsiz ki, ölkəmizdə milli güləşin tarixi daha qədimdir. Onun elementlərinə Qobustan qayalarında, şifahi xalq və klassik ədəbiyyatımızda rast gəlmək olar. Qədimdə güləş yarışları zorxanalarda təşkil olunurdu.

### Milli idman növünün faydaları

Güləş faydalarına görə digər idman növlərindən çox fərqlənir. Belə ki, idmanda idmançıdan ən çox güc tələb edən növ güləşdir. Həkimlərin araşdırmasından sonra məlum olub ki, bu növlə məşğul olarkən insan bədənində olan əzələlər işlək vəziyyətdə olur.

Güləş eyni zamanda insanı düşünməyə vadar edir. Niyə? Bu növlə məşğul olarkən insan fiziki güclə yanaşı, ağlını da işlətməlidir: hansı fəndə qarşılıq verməyi, rəqibinin zəif tərəfini sezməlidir. Bununla yanaşı, güləşlə məşğul olan insanların intuisiyası daha güclü olur. Onlar rəqibin hansı fənddən istifadə edəcəyini öncədən duyurlar.

Güləş idman növü insanda sürət, qüvvət, elastiklik, dayanıqlılıq kimi fiziki xüsusiyyətləri inkişaf etdirir. Eyni zamanda güləş özündə cəsarət, təvazökarlıq, özünəgüvənc kimi insani xüsusiyyətləri birləşdirir. Güləş bir mübarizə idmanı olmaqla insana dözüm və yüksək iradə qazandıran milli idman növüdür.

### Güləşin inkişafı üçün Naxçıvanda görülən işlər

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov fiziki və mənəvi cəhətdən sağlam gənclərin yetişdirilməsini ən vacib məsələlərdən biri hesab edir. Ali Məclisin Sədri çıxışlarının birində güləş idman növü haqqında demişdir: ***"Ölkəmizdə güləş idman növü zəngin tarixə və özünəməxsus ənənələrə malikdir. Azərbaycanda hələ qədim zamanlardan "Zorxana" adlanan yerlərdə milli idman növü olan güləş yarışları keçirilmişdir. Azərbaycanda tarixən qədim idman növü olan güləşə böyük maraq olmuşdur. Bu idman növünün elementləri Qobustan qayaüstü rəsmlərində və digər ədəbi-tarixi mənbələrdə öz əksini tapmışdır. Azərbaycanda qədim dövrlərdən populyar idman növü olan güləşin müasir şəraitdə inkişafını yüksək qiymətləndirən ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Azərbaycanda güləş milli və ən məşhur idman növüdür. Bütün dövrlərdə bizim çox məşhur güləşçilərimiz olmuşdur".***

Bu gün idmana göstərilən qayğı bütün idman növlərinin, o cümlədən güləşin həm texniki-təlim, həm də elmi-metodik bazasının daha da gücləndirilməsinə geniş imkan yaradıb. Muxtar respublikada güləşin daha da inkişaf etməsi və kütləviləşməsi istiqamətində Gənclər və İdman Nazirliyi ilə Güləş Federasiyası tərəfindən mühüm işlər görülür. Uşaq və yeniyetmələr, gənclər arasında güləşin inkişaf etdirilməsinin başlıca məqsədlərindən biri ehtiyat qüvvələrin, yəni yeni güləşçilərin hazırlanması, onların püxtələşməsidir. Belə olan halda məşqçilərin seçim imkanları daha geniş olur. Bu nüansı nəzərə alan federasiya müəyyən istiqamətdə ciddi tədbirlər həyata keçirir. Nazirlik və federasiya tərəfindən uşaq və yeniyetmələrin güləşə cəlb olunmasına, onların daha keyfiyyətli məşqlər keçməsinə diqqət artırılır.

Naxçıvan güləşçiləri son illər ölkədaxili və beynəlxalq yarışlarda mütəmadi iştirak etməklə yarış praktikalarını da artırırlar. Keçirilən yarış və turnirlər eyni zamanda məşqçilərin seçim imkanlarını asanlaşdırır. Bunun nəticəsidir ki, indi muxtar respublikanı beynəlxalq yarışlarda bütün çəki dərəcələrində layiqincə təmsil edən güləşçilər yetişib.

İdmanda daha yüksək nəticənin qazanılması üçün idman bazalarının olması böyük əhəmiyyət kəsb edir. Federasiya tərəfindən muxtar respublikanın şəhər və rayonlarında güləşin kütləviliyinin təmin edilməsi, maddi-texniki bazanın gücləndirilməsi üçün tədbirlər həyata keçirilir ki, bunun da nəticəsində idmançılarımız beynəlxalq yarışlarda inamlı çıxışları ilə yadda qalırlar. Hazırda rayonlarda müxtəlif yaş qruplarında məşğul olan güləşçilər üçün federasiya və məşqçilər tərəfindən ayrı-ayrı məşq proqramları tərtib olunur. Görülən bu işlər uşaqların güləşlə məşğul olmasına, onların asudə vaxtlarının səmərəli keçməsinə, fiziki cəhətdən sağlam olmalarına zəmin yaradır.

Haliyədə muxtar respublikada güləşin inkişafı istiqamətində atılan ən ciddi addımlardan biri rayon mərkəzlərində və kəndlərdə bölmələrin açılmasıdır. Bu növün təbliği nəticəsində şəhər və rayonlarda 105 qrup fəaliyyət göstərir ki, ümumilikdə, 1373 uşaq, yeniyetmə və gənc milli idman növü ilə məşğul olur. Bu idmançıları isə muxtar respublikada fəaliyyət göstərən 49 məşqçi-müəllim çalışdırır.

Müasir idman infrastrukturunun və perspektivli idmançıların mövcudluğu muxtar respublikada beynəlxalq turnirlərin keçirilməsinə şərait yaradıb. Bu gün Naxçıvanda güləş üzrə də beynəlxalq turnirlər təşkil olunur. Ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunan güləş üzrə "Naxçıvan kuboku" uğrunda Beynəlxalq Turnirdə hər il yüzlərlə pəhləvan qüvvəsini sınayır.

Bəs son illər güləşçilərimiz hansı uğurlara imza atıblar? Bu müddət ərzində Naxçıvan güləş məktəbinin yetirmələri ölkədaxili və beynəlxalq arenalarda böyük uğurlar əldə ediblər. Naxçıvan güləş məktəbinin yetirməsi Hacı Əliyev iki dəfə ardıcıl olaraq (2014 və 2015-ci illər) dünya çempionu olmaqla, Azərbaycan güləş tarixində yeni səhifə açıb. Yaşar Əliyev isə Avropa çempionatında bürünc medal qazanıb. Bu müddət ərzində Naxçıvan güləşçiləri gənc və yeniyetmələr arasında Azərbaycan çempionatlarında iştirak edib, mükafatçılar sırasına düşməklə yanaşı, həm də ölkə millisinə dəvət alıblar. Uğurları bununla tükənməyən güləşçilərimiz mütəmadi olaraq Bakı şəhərində təşkil edilən Rəşid Məmmədbəyov, şəhid Muşfiq İsayev, "Olimpiyaçılar aramızda" və digər turnirlərdə iştirak etməklə muxtar respublikaya daim medallarla qayıdıblar. Eyni zamanda pəhləvanlarımız 2013-cü ildə Naxçıvanda təşkil olunan ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunan yunan-Roma güləşi üzrə gənclər arasında "Naxçıvan kuboku" uğrunda Beynəlxalq Turnirin qalibi adını da qazanıblar.

Milli irsimizə və ənənələrimizə bağlılıqdan irəli gələn güləş eyni zamanda Azərbaycanın və azərbaycanlıların gücünü nümayiş etdirir. Ali Məclis Sədrinin dediyi kimi: ***"Bəşər mədəniyyətinin ən böyük nailiyyətlərindən biri olan idmanın əsasında sağlam mübarizə dayanır. Mübarizə isə iradə, cəsarət və fiziki hazırlıq tələb edir. Hər bir idmançı qələbəyə gedən yolun bu 3 amildən asılı olduğunu unutmamalı, daim özünü fiziki cəhətdən hazırlamalı, yarışlarda əsl mübarizlik göstərməlidir".***

Güləş mübarizəni sevən idmandır. Mübariz insanlar isə Vətənini sevir. Vətənin mübariz insanları var olduğu təqdirdə, Azərbaycan hər zaman yaşayacaq, dünya arenalarında dalğalandırdığı üçrəngli bayrağı ilə var olduğunu sübut edəcək!

**✍ Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Ordubad rayonunun Yuxarı Əylis kənd sakini Qədirquliyev Mehdi Niyazalı oğlunun adına verilmiş MV-025642 nömrəli müharibə veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonunun Qıvraq qəsəbəsində yaşamış Abbasova Laləzar Salman qızının adına olan $633^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonunun Çalxanqala kənd sakini Məmmədov İlyaz Heydər oğlunun adına verilmiş $727^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 789